525-ci qəzet 8 yanvar 2020-ci il, çərşənbə

www.525.az www.facebook.com/525.az/ www.instagram.com/525ciqezet/



***"525-ci qəzet"in 20 Yanvar şəhidi, şair Ülvi Bünyadzadənin anadan olmasının 50 illiyi münasibətilə vətənpərvərlik mövzusunda keçirdiyi şeir və esse müsabiqəsi kifayət qədər diqqət çəkdi və geniş maraq doğurdu. Bu isə, sözsüz ki, həm şəhid şairimizin həyat və yaradıcılığına maraqdan, xatirəsinin daima əziz tutulmasından, həm də mövzunun aktuallığından qaynaqlanırdı. Müəlliflər arasında, gənc olmalarına baxmayaraq, artıq kifayət qədər tanınan qələm sahiblərilə yanaşı, bir sıra yeni imzalar da var ki, bu da özlüyündə diqqətəlayiq cəhətdir. Onların hər birinə müsabiqəyə qatıldıqları üçün təşəkkür edir və yeni yaradıcılıq uğurları arzulayırıq.***

***Ülvi Bünyadzadənin doğum günü olan 23 sentyabrdan başlayaraq 2 dekabra qədər əsər qəbulu davam etmiş müsabiqə artıq yekunlaşıb və qaliblər müəyyən olunub.***

***Professor Cahangir Məmmədli, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə və "525-ci qəzet"in baş redaktor müavini, ədəbiyyatşünas Seyfəddin Hüseynlinin münsif olduğu müsabiqədə ümumilikdə 40-a yaxın müəllif iştirak edib.***

***Hər üç münsifdən ən yüksək balları alan Şəfa Vəli "Anamın bayat dərdi" essesi ilə 1-ci mükafatı qazanıb.***

***2-ci (üç mükafat) və 3-cü yerlər (5 mükafat) üzrə qaliblərin bir neçəsi bərabər ballar topladıqları üçün bu mükafatların sayının artırılmasına qərar verilib.***

***Beləliklə, 4 iştirakçı - Emin Piri "Qələmlə yazılanlar", Günel Bayatlı (Mehdizadə) "Qəbirdə də Qarabağın özüyəm", Heyran Cavadova "İyirmi", İlahə Əhmədova "Qırmızıya bürünmüş qara tarix" essesinə görə - ikinciliyə layiq görülüblər.***

***7 müəllif - Elmin Nuri "Ruhköçürmə stansiyası" essesi, Gülnar Natiqqızı "İgidim Ülvi" şeiri, Kənan Novruzov "İllər keçsə də... yaşayacaq...", Nahidə Xəqaniqızı "Xalqın ürəyində yer alan şair", Nərgiz Qazi "Vətəni qürbətdə yaşamaq", Simran Qədim "Işığa toplaşanlar", Şəhla Aslan "Torpaq - dövlətin təməli kimi" essesi ilə - üçüncü mükafata layiq bilinib.***

***Afiq Abdullayev "Ülvi Bünyadzadə - tarixin şahidi və vətənin şəhidi olan gənc", Aysel Misirgil "Gedənlər geriyə dönür...", Dəniz Kərimli "Onlar mütləq doğma yurda qayıdacaqlar". Etibar Həsənzadə "Şəhidlik ülviyyəti", Əminə Mirzəyeva "Vətən mənim bu günüm...", Fatimə Şavruqova "Vətənpərvərlik", Günel Abbas "Vətənə getməyim gəlir...", Günəş Mərdiyeva "Hər addımda vətənpərvərlik", Nuranə Abbasova "Qorxu", Pərvanə Fərhadqızı "Vətən cənnətdir", Sevda Səfərova "Gəncliyə örnək ömür yolu", Sonaxanım Əzizova "Ölümsüzlük şərbəti - Şəhidlik" essesi ilə, Ayşən Məmmədova "Sil gözünü, Azərbaycan!", Elnur Rəhimov "Bağışla, ürək", Elvin Əlizadə "Bayraq", Ərşad Nihad "İlk sözün vətəndi, son sözün vətən", Gülay Tahirli "Salam, ana torpaq!", Xətai Misirzadə "Sən bir zirvəsən...", Məhəmməd Hacıyev "Vətən", Nigar Arif "Çağırış", Pərviz Əlyarəğlu "Mən ölmək istəmirəm!", Səidə Əliyeva "Elegiya", Tural Cəfərli "Kor güllənin işıq həsrəti", Ulucay Akif "Vətən" şeiri ilə iştirakçı kimi hədiyyə qazanıblar.***

***Qeyd edək ki, 2020-ci ilin yanvarında 20 Yanvar qırğınının 30-cu ildönümü tamam olacaq. Qaliblərin mükafatlandırılması və müsabiqə materiallarından ibarət kitabın təqdimat mərasiminin məhz bu hüznlü ildönümü günlərində keçirilməsi nəzərdə tutulur.***

***Müsabiqədə 2-ci mükafata layiq görülənlərdən Emin Pirinin "Qələmlə yazılanlar" və Heyran Cavadovanın "İyirmi" essesini oxuculara təqdim edirik. Digər müəlliflərin də mətnlərini vaxtaşırı dərc edəcəyik.***

**Azca rahat olan Babək;**
**Bir qırmızı yuxu içrə,**
**Uzaqlara dalan Babək.**
**Deyən Babək: - Aman dostlar,**
**Hücum çəkin qoşun-qoşun,**
**Orda mənsiz qılınc çalan**
**Qollarımla bir vuruşun.**

Babəkin qollarını, onun qollarına çevrilən ruhunuzu salamlayıram, şəhidlər!



*Heyran CAVADOVA*

*1992-ci ildə Ağdamda dünyaya gəlib. 2009-cu ildə məktəbi əla qiymətlərlə başa vuraraq elə həmin il Azərbaycan Dillər Universitetinin filologiya və jurnalistika fakültəsinə qəbul olunub. Həmin universitetdə magistraturanı da fərqlənmə ilə bitirib. Elmi məqalələri qəzet və jurnallarda dərc olunub. Bir çox elmi konfranslarda çıxış edib. Hazırda Azərbaycan radiosunda süjetlər yazır və səsləndirir.*

## İyirmi

Hələ uşaq idim. Elə hey gələcək haqqında fikirləşərdim. Kiçik bacım və kiçik qardaşım ilə birgə xəyallar qurardım. Uşaqlıq çağlarımdan ailənin böyük övladı olmaq məsuliyyətini daşıyardım. Anamın xalça toxumağı, atamın şair ürəyi incəsənətə olan sevgimi artırardı. Duyğularla dolu olan həssas ürəyimin hiss etdiklərini, yaşadıqlarımı, qəlbimin ifadəsini qələmə alaraq mənəvi rahatlıq tapardım. İnsan hisslərinin ən incə detallarını əks etdirərək, qəlb oxşayan musiqi və şeir mənim həyatımın əsası idi. Musiqi alətlərini çalarkən ürəyin simlərinə toxunurdum, ülvi duyğularımı ifadə edərdim.

20 rəqəmi. Bu rəqəmin həyatıma böyük təsiri olacağını bilməzdim. 20 yanvar və 20 yaş. Qəribədir... iyirmi yaşıma qədər bütün işlərimi tələsə-tələsə görərdim. Elə bil hiss edirmiş kimi, şeirlərimi, söyləmək istədiklərimi, düşüncələrimi tez ifadə edərək ömrümə sığdırmağa çalışardım. Vətən sağ olsun deyə onun uğrunda ölməliydim, axı...

Ölənədək bir çox 20 yanvarlar gördüm, amma onların hər biri adi bir gün idi. Həmin günləri bəzən güldüm, bəzən ağladım, bəzən düşündüm, bəzən yazdım, bəzən kövrəldim, ailəmlə birgə gözəl vaxt keçirdim, qısacası, yaşadım...

1990-cı ilin 20 yanvarında isə doğma torpağım üçün can verməyə, qan tökməyə hazır idim. İndi həmin doğma torpağımla qovuşmuşam. O, soyuq olanda məni üşüməyə qoymur, hər an onun qoxusunu alıram, çiçəklərin ətrini də duyuram, hər bir ölüyə ağlayaraq ətir saçan qərənfillərin ətrini. Ailəmin və yüzlərlə insanın ayaq səslərini eşidirəm, axıtdıqları göz yaşları məni üzsə də, etdikləri fəxr ruhumu şad edir.

20 yanvar doğma yurdum üçün heç vaxt sönməyən bir qəlb yanğısıdır. 20 yanvar hər il neçə-neçə insanın yarasına duz basan qanlı bir tarixdir. 20 yanvar əsl qışı yaşadan bir çovğundur.

Uşaqlığımla və gəncliyimlə, 20 yaşlı bir gənc olaraq xatirələrdə qaldım. Yəqin, ailəm düşünür ki, görəsən yaşasaydı, digər yaşlarında necə görünərdi, ailə həyatı qursaydı, övladları olsaydı, ona bənzəyərdilərmi görəsən?! Narahat olmayın, əziz ailəm, şəhidlik zirvəsini özünə fəxr bilən, vətən yolunda ölümə hazır olan, vətənin keşiyini çəkib layiqincə xidmət edən neçə-neçə qəhrəman övladlarım var mənim...